**“Xalq qəzeti”.-**2011.-4 oktyabr.-N 218.-S.4.

## Azərbaycanın müstəqilliyinin 20 ili: uğurlar, problemlər, perspektivlər

**Azərbaycan Respublikası bu il müstəqilliyinin 20 illik yubileyini qeyd edir. Bu əlamətdar hadisənin təntənəli keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev 21 yanvar 2011-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" sərəncam imzalamışdır. Ötən 20 il ərzində ölkəmiz böyük, şərəfli və eyni zamanda mürəkkəb bir inkişaf yolu keçmişdir.**

Bu bir həqiqətdir ki, ölkənin suverenlik əldə etməsi və müstəqil dövlət quruculuğu yoluna qədəm qoyması hələ inkişaf üçün "buludsuz səma" demək deyildir. 90 il çar Rusiyası (1828-1918) və 71 il (1920-1991) Sovet imperiyası tərkibində mövcud olmuş Azərbaycan 161 illik işğal rejimindən sonra müstəqilliyini 1991-ci ildə bəyan etsə də, əslində, real suverenliyinə 1993-cü ildə nail oldu. Həmin il xalqın israrlı tələb və xahişindən sonra Heydər Əliyev hakimiyyətə qayıtdı və bununla da Azərbaycanda milli intibah dövrünün yeni mərhələsi (1993-2003-cü illər) başlandı. Bu dövr ulu öndərin təbirincə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Həmin dövrdə Rusiyanın siyasi-hərbi elitasında formalaşmış mövqeyə görə, ərazisindən hərbi bazaları çıxarılan və birmənalı olaraq Qərbə inteqrasiya xəttini seçən Azərbaycan regionda Kremlin uzağagedən planları üçün birbaşa təhlükə mənbəyi rolunu oynayırdı. Həmin mərhələdə hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbatsız daxili və xarici siyasət kursu Rusiyanın Azərbaycana münasibətdə məlum sərt mövqeyinin formalaşmasında az rol oynamadı. Nəticədə məhz həmin illərdə Rusiyanın himayəsi ilə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi.

Bundan savayı, Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi. Belə şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüz növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, Cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin özbaşınalığı həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində, respublikamız real vətəndaş müharibəsi astanasında idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü.

Yuxarıda qeyd etdiyimiz kimi, yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxışı təmin etdi. Zəmanəmizin dühası olan Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, əgər bir sözlə ifadə etmək mümkünsə, məhz Xilaskar missiyasını yerinə yetirdi.

Yuxarıda sadalanan mürəkkəb problemlərin həlli məqsədilə Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də uğurlu xarici siyasət strategiyasını müəyyənləşdirdi. Balanslı və çoxvektorlu xarici siyasət kursu kimi xarakterizə olunan bu siyasətin prioritet istiqamətlərindən birini də "yeni neft diplomatiyası" təşkil edirdi.

Azərbaycanın yeni enerji strategiyasının memarı ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində müəllifi olduğu iki siyasi qərar ölkəmizin neft-qaz siyasətinin formalaşmasında həlledici əhəmiyyətə malik oldu, eyni zamanda respublikamızın Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə hazır olduğunu nümayiş etdirdi. Daha dəqiq desək, 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 12 şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin yeni neft strategiyasının başlanğıcı oldu. 1996-cı il iyunun 6-da regionunvə eləcə də Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilənin imzalanması ilə bu proses dönməz xarakter aldı.

Ümummilli lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. 1995-ci ildə referendum yolu ilə ilk konstitusiyamız qəbul edildi. Bu konstitusiya insan hüquq və azadlıqlarının ehtiva olunması baxımından ən yüksək normalara və standartlara cavab verirdi və Azərbaycanın demokratik inkişafının əsasını qoymaqla onun beynəlxalq siyasətin yeni şərtlərinə uyğunlaşmasına zəmin yaratdı. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi.

Bundan savayı, Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi, yeni məhkəmə korpusu yaradıldı, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edildi, on minlərlə insan amnistiya aktı nəticəsində azadlığa çıxdı və böyük sayda məhkum bağışlandı, senzura ləğv edildi, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edildi.

1998-ci il fevralın 3-də Prezident Heydər Əliyev Milli Məclisə müraciətində ölkədə ölüm hökmünün ləğvinin zəruriliyini bəyan etdi və bildirdi ki, respublikada cinayət-hüquqi vəziyyətin hərtərəfli təhlili, habelə yüksək ədalət, azadlıq, humanizm, insansevərlik idealları ona bu tarixi addımın zəruriliyini əsaslandırmağa imkan verir.

Dövlət başçısı Heydər Əliyevin ölkədə demokratiyanın daha da dərinləşdirilməsinə istiqamətlənmiş insan və vətəndaş hüquqlarının təmin olunması sahəsində tədbirlər haqqında 22 fevral 1998-ci il tarixli Sərəncamında insan hüquqları sahəsində görüləcək tədbirlərin konsepsiyası və istiqaməti müəyyən edildi və ümumdövlət səviyyəsinə yüksəldildi. Bunun ardınca Azərbaycanın konkret inkişaf şərtlərinə uyğun olaraq, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmağı nəzərdə tutan insan hüquqlarının müdafiəsi üzrə Dövlət Proqramı təsdiq edildi.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra atdığı ilk addımlardan biri əfvetmə institutunun bərpa edilməsi oldu. 1995-ci il 4 may tarixli Prezident sərəncamı ilə əfv məsələləri üzrə Komissiya yaradıldı.

Bütövlükdə əfv qərarları və amnistiya aktları on minlərlə məhkumu əhatə etməklə, Azərbaycan Respublikasının Konstitusiyada və beynəlxalq aktlarda təsbit olunmuş insan hüquq və azadlıqlarına hörmətlə yanaşıldığını təsdiq etdi. Yalnız son illərdə Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə iki amnistiya aktı (ümumən, 10 amnistiya aktı) qəbul edilmişdir. Bununla da minlərlə insan məhkumluqdan azad edilmiş və nəticədə ölkəmizdə hər 100.000 nəfərə düşən məhkumların sayı 198 nəfər olmaqla, ümumavropa standartlarına yaxınlaşmışdır.

Müstəqilliyinin 20-ci ildönümünü qeyd etdiyimiz müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və sonrakı inkişafı naminə ulu öndərin atdığı ən mühüm addımlardan biri də dünya azərbaycanlılarının həmrəyliyi və təşkilatlanması ilə bağlı olmuşdur. Hələ 1991-ci ildə Naxçıvanda ulu öndərin təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi elan edilmişdir. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin yaradılması məqsədilə onların qurultaylarının keçirilməsi ənənəsinin də təməlini 2001-ci ildə ulu öndər Heydər Əliyev qoymuşdur.

Məhz ümummilli liderin təşəbbüsü ilə dünyada yaşayan azərbaycanlılarla koordinasiya olunmuş dövlət siyasətini həyata keçirmək üçün 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. 2008-ci ildən həmin qurum Diasporla İş üzrə Dövlət Komitəsi adlanır və öz missiyasını uğurla həyata keçirir.

Bir sözlə, ümummilli lider bu il təntənəli şəkildə 20 illiyini qeyd etdiyimiz müstəqil Azərbaycanda bütün sahələrdə quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaradılması, çevik və balanslaşdırılmış xarici siyasət kursunun həyata keçirilməsi, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət sahələrinin tərəqqisi, hüquqi və demokratik dövlət quruculuğu məhz onun adı ilə bağlıdır. O, xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, siyasi məktəb miras qoymuşdur. Bu irsin ən görkəmli nümayəndəsi, Heydər Əliyev siyasi məktəbinin layiqli təmsilçisi cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 8 il ərzində milli intibahın növbəti şərəfli mərhələsini yaşayır.

Prezidentliyinin ilk 5 ili ərzində İlham Əliyevin dövlətçiliyimiz tarixində yeni missiyasının həll etməli olduğu vəzifələrə Azərbaycanda bir çadır şəhərçiyinin belə qalmayacağı, məcburi köçkünlərin sosial müdafiəsinin təşkilinin əsas məsələ olacağı, yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcəyi, 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacağı, regionların iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacağı, sahibkarlığa dövlət qayğısının artıralacağı, transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacağı və s. daxil idi.

İlham Əliyevin prezidentlik fəaliyyətinin qeyd edilən dövrü ərzində sadalanan bütün istiqamətlər üzrə nəzərəçarpacaq nailiyyətlər əldə olundu. 610 min yeni iş yerinin açılması, neft gəlirlərindən istifadə olunmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir azərbaycanlı ailəsi üçün rifahın və təhlükəsizliyin təmin edilməsi, dövlət strukturlarının işinin səmərəli, dünya standartlarına uyğun şəkildə qurulması, rəhbər işçilərin məsuliyyətinin artırılması, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, beynəlxalq standartlara cavab verən demokratik parlament seçkilərinin keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə imkan verən müstəqil xarici siyasət kursunun yeridilməsi, Avropa və dünya strukturlarına inteqrasiyanın davam etdirilməsi həmin siyasətin real göstəriciləri hesab oluna bilər.

2008-ci ildə xalqın mütləq əksəriyyətinin etimadı nəticəsində ikinci dəfə prezident seçilən İlham Əliyev iqtisadiyyatın bundan sonra da inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi və ölkənin modernləşdirilməsini ölkəmizin qarşısında duran başlıca vəzifələr kimi müəyyənləşdirdi. İqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın azaldılması, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq irəli sürüldü. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün tapılması nəticəsində Azərbaycan hətta dünya iqtisadi-maliyyə böhranı illərində analoqu olmayan iqtisadi inkişaf tempinə nail ola bildi.

Prezident İlham Əliyevin təbirincə desək, "2009-cu ildəki 9,3%-lik iqtisadi artım mənim üçün əvvəlki illərdəki 25-30%-lik artımdan qat-qat əhəmiyyətlidir, çünki bu artım böhranın ən şiddətli ilində, neftin qiymətinin 4 dəfə aşağı düşdüyü vaxt olmuşdur. Bizim iqtisadiyyatımız isə, hər halda, daha çox enerji sektoruna istiqamətlənmişdir.

Bu nəticə onu göstərir ki, bizim apardığımız islahatlar sayəsində iqtisadiyyatın digər sektorlarında inkişaf başlamışdır. Son 7 ildə biz 900 mindən çox yeni iş yeri yaratmışıq, yoxsulluğun səviyyəsi demək olar ki, 50%-dən 9%-ə endirilmişdir."

Azərbaycanın Prezidenti 5 iyul 2011-ci il tarixində Dünya azərbaycanlılarının III qurultayındakı nitqində qeyd etdiyi kimi, ümumən, son 7 il ərzində ölkə iqtisadiyyatı 3 dəfə artmışdır. Başqa sözlə, ÜDM-nin həcmi 300 % yüksəlmişdir. Bu da dünya praktikasında anoloqu olmayan təcrübədir. Sənaye istehsalı da təxminən 3 dəfə artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı 5 dəfə azalmışdır. Bu, onu göstərir ki, Azərbaycan dövlətinin apardığı islahatlar sosial yönümlüdür. Bu siyasətin təməlində insan amili dayanır və bir neçə il əvvəl elan edilmiş "Biz neft kapitalını insan kapitalına çevirməliyik" şüarı bu gün reallaşır.

Ümumən, müstəqillik illərində ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 97 milyard dollara bərabərdir. Bu vəsaitin də 53 faizi daxili investisiyalardan ibarətdir. Keçən il bütövlükdə ölkə iqtisadiyyatına 15, 5 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Bunun 8 milyard dollarını daxili, 7 milyard dollarını isə xarici investisiyalar təşkil etmişdir. Başqa sözlə, hətta böhran dövründə də Azərbaycan əcnəbi sərmayədarlar üçün öz cəlbediciliyini qoruyub saxlamışdır. Bu, ilk növbədə, ölkədə yaxşı investisiya mühiti, xarici sərmayədarların qorunması və eləcə də dinamik inkişaf nəticəsində baş vermişdir.

Bu gün Azərbaycan hansısa beynəlxalq maliyyə institutlarından və ya siyasi mərkəzlərindən asılı olmayan regional lider dövlət səviyyəsinə yüksəlmişdir. Ölkəmizin iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75%-ni təşkil edir. Təsadüfi deyildir ki, beynəlxalq təşkilatların reytinq cədvəllərində Azərbaycanın mövqeyi yüksək olaraq qalmaqdadır. Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan iqtisadiyyatı öz rəqabət qabiliyyətinə görə MDB məkanında birinci ölkə olaraq təqdim olunmuşdur. Ölkəmiz informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və hazırlığına görə də MDB məkanında birinci mövqedədir. BMT-nin hesabatına görə, insan inkişafı indeksinə görə də ən böyük sıçrayışı məhz Azərbaycan etmişdir.

Nazirlər Kabinetinin 2011-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyev qeyd etmişdir ki, ölkəmiz üçün xarakterik olan iqtisadi inkişaf bu ilin 6 ayı ərzində də qorunub saxlanılmış, ÜDM 0,9% artmışdır. Qeyri-neft sektorunda artım isə 7,2% təşkil etmişdir. Ölkənin büdcə xərcləri 20 milyard dollara çatmışdır ki, bu da rekord göstəricidir. Dövlətin strateji valyuta ehtiyatları 38 milyard dollar səviyyəsindədir. Dövlət Neft Fondunun aktivlərinin həcmi isə hazırda 30 milyard dollardan çoxdur.

Ölkəmizin qeyd olunan iqtisadi uğurlarının əldə edilməsində, heç şübhəsiz, düzgün enerji siyasətinin aparılması müstəsna rola malikdir. Bu gün ölkənin təsdiq edilmiş enerji ehtiyatları 1,5 milyard tondan artıq neft və 2 trilyon kubmetr qazdan ibarətdir və 7 kəmərlə Avropa və dünya bazarlarına çatdırılır. Bunlardan 3-ü neft (Rusiya, Gürcüstan və Türkiyə istiqamətləri) 4-ü isə qaz ( Türkiyə, Gürcüstan, Rusiya və İran istiqamətləri) kəmərləridir. Bunların içərisində 2006-cı ilin mayında Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və həmin ilin sentyabrında Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz boru kəmərlərinin istifadəyə verilməsi həm regional, həm də Avropanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. BTC sutkada 1 milyon barrel, ildə 50 milyon ton neftin ixracını həyata keçirir. BTƏ boru kəməri ilə isə ildə 25 milyard kubmetr qaz ixrac edilir. Yeri gəlmişkən, onu da qeyd edək ki, 2010-cu ildə ölkəmizdə 51,5 milyon ton neft, 28,5 milyard kubmetr qaz hasil edilmişdir. Hasil olunan qazın təqribən 10-11 milyard kubmetri daxili tələbat üçün istifadə olunur, qalan hissəsi isə ixrac resurslarıdır. Lakin hələlik ixracın məhdud olması və eləcə də neft laylarında təzyiqi saxlamaq üçün bu qazın bir hissəsi yenidən laylara vurulur.

Bundan əlavə, mütəxəssislər təqribən 20 milyard dollar məbləğində əlavə sərmayə qoyulacağı təqdirdə qaz hasilatının 15 milyard kubmetr həcmində artırılmasının mümkün olduğunu qeyd edirlər. Təkcə "Şahdəniz" yatağında təsdiqlənmiş qaz ehtiyatları 1,2 trilyon kubmetr təşkil edir. Təxminən, "Ümid" yatağında 200 milyard kubmetr, "Babək" yatağında 400 milyard kubmetr, "Abşeron" blokunda aşkar edilmiş yeni böyük qaz yatağında isə 350 milyard kubmetrə bərabər qaz ehtiyatı vardır. Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə desək, bu o deməkdir ki, əgər Azərbaycan ancaq öz tələbatını ödəsə və deməli xaricə qaz ixrac etməsə, bu ehtiyatlar ölkəmizə 100 ilə kifayət edər.

Azərbaycanın Avropa ölkələri ilə inkişaf edən enerji siyasəti digər dövlətlərə qarşı yönəlməmişdir. Ölkəmiz bu istiqamətdə həm Rusiya, həm də İranla əməkdaşlıq kursunu həyata keçirir. Bu siyasət respublikamızın enerji nəqlində prioritet verdiyi diversifikasiya (şaxələndirmə) xəttindən qaynaqlanır.

Məhz belə praqmatik siyasətin nəticəsində dünyada Azərbaycanın dostlarının sayı artmışdır. Bu uğurun əldə edilməsində ölkəmizin xarici ölkələrdəki səfirlik və diaspor təşkilatlarının da böyük töhfəsi vardır. Əgər 2006-cı ildə Azərbaycan beynəlxalq aləmdə 46 səfirlik və konsulluqla təmsil olunurdusa, 2011-ci ildə bu göstərici 65-ə çatmışdır. Yaxın zamanlarda daha 8 ölkədə yeni səfirlik və konsulluğun açılması nəzərdə tutulur. Bu isə öz növbəsində ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi, təsir imkan və rıçaqlarının daha da genişlənməsi deməkdir. Bu prosesdə həlledici həlqələrdən birini də məhz dünyadakı diaspor təşkilatlarımız təşkil edir. Təsadüfi deyildir ki, Dünya azərbaycanlılarının III qurultayında "Dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşmışdır. Beş il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatmışdır",- deyən Prezident İlham Əliyev xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın yaşadıqları ölkənin daxili siyasətinin amilinə çevrilməsi vəzifəsini irəli sürmüşdür. Azərbaycan Prezidenti İlham Əliyev qurultaydakı çıxışında vurğulamışdır ki, soydaşlarımız - azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət

qurumlarında, qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Onların sayı da bəzi hallarda buna imkan verir.

Beləliklə, bu gün güclü iqtisadiyyata, siyasi sabitliyə və demokratik inkişaf xəttinə malik olan dövlətimiz qarşısında qoyduğu istənilən vəzifənin öhdəsindən uğurla gəlir. Bu reallıqlar fonunda adekvat olaraq ölkəmizin qüdrətli hərbi potensialı formalaşmışdır. Bu gün ölkəmizin hərbi xərcləri 3,3 milyard dollara bərabərdir. Bu, yoxsulluq içərisində yaşayan Ermənistanın dövlət büdcəsindən 50% çoxdur. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə ölkəmizin hərbi büdcəsi 160 milyon dollar, 2010-cu ildə isə bu göstərici 2 milyard 150 milyon dollar təşkil etmişdir. Azərbaycanın hərbi baxımdan davamlı olaraq güclənməsi və bu məqsədlə böyük büdcə xərcləri ayırması Ermənistanın torpaqlarımızı işğal altında saxlaması reallığından qaynaqlanır və bu məsələdə status-kvo vəziyyətinin dəyişdirilməsi məqsədinə xidmət göstərir. 1999-cu ildən bəri 44 dəfə münaqişənin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil edən ATƏT-in Minsk qrupunun nəticə baxımından öyünməyə haqqı yoxdur. Danışıqlar prosesində ayrı-ayrı hallarda müsbət dinamika müşayiət olunsa da, nəticə sıfra bərabər olmuşdur.

Azərbaycan tərəfi münaqişənin tənzimlənməsi ilə bağlı ATƏT-in Minsk qrupunun 2004-cü ildə start verdiyi "Praqa prosesinə" sadiqdir. Bu proses çərçivəsində münaqişənin "mərhələli həll" yolu ilə tənzimlənməsi nəzərdə tutulmuşdur. Bu prosesin davamı olaraq 2007-ci ilin noyabr ayında ATƏT-in Minsk qrupu münaqişənin həlli ilə bağlı "Madrid prinsipləri"ni irəli sürmüşdür. Azərbaycan və Ermənistan tərəfləri bir neçə dəfə bu prinsiplərlə bağlı təkliflərini irəli sürmüş və son nəticədə sənədin yeni variantı 2009-cu ilin dekabr ayında hazırlanaraq münaqişə tərəflərinə təqdim olunmuşdur. Sənədə əsasən, münaqişənin tənzimlənməsi prosesinin birinci mərhələsində Dağlıq Qarabağın hüdudlarından kənarda işğal altında olan 7 Azərbaycan rayonunun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın) "5+2" formatında, yəni əvvəlcə 5 rayonun, 5 ildən sonra isə daha 2 rayonun azad olunması, məcburi köçkünlərin öz yurd-yuvasına qaytarılması, bölgədə beynəlxalq sülhməramlıların yerləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, kommunikasiyaların bərpası və iki xalqın təhlükəsizlik şəraitində yaşamasını təmin edən digər addımların atılması nəzərdə tutulmuşdur. Yalnız növbəti mərhələdə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi məsələsinə baxılacağı sənəddə əks olunmuşdur. Konfidensial xarakterli "Madrid prinsipləri"ndən geniş ictimaiyyət üçün məlum olan müddəaları bunlardan ibarətdir.

Azərbaycan tərəfi yenilənmiş "Madrid prinsipləri"nin bir sıra nüanslarından narazı qalsa da, münaqişənin həlli naminə prinsip etibarilə sənədi qəbul etməyə hazır olduğunu bildirmişdir. Bununla da Azərbaycan növbəti dəfə konfliktin həlli prosesində konstruktiv mövqe nümayiş etdirmişdir. Azərbaycanın bu mövqeyi Ermənistanı çıxılmaz vəziyyətə salmışdır. Rəsmi Yerevan problemin həlli yolları deyil, onun yenidən mürəkkəbləşdirilməsi ilə bağlı ssenarilər üzərində baş sındırır. Məqsəd permanent danışıqlar yolu ilə status-kvonu-Azərbaycan torpaqlarının işğal altında saxlanılması vəziyyətini qoruyub saxlamaqdan ibarətdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfinin münaqişənin həlli yolları ilə bağlı mövqeyi dəyişməzdir. Həmin mövqe Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə bəyan edilibdir. Həmin mövqeyə görə, Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın ermənilərinə respublikamızın hüdudları daxilində ən yüksək muxtariyyət statusu verilməsi yolu ilə həllini dəstəkləyir.

Ölkəmizin ali rəhbərliyi bu mövqeni-Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa beynəlxalq praktikada tətbiq olunan ən yüksək muxtariyyət statusu verməyə hazır olduğunu dəfələrlə bəyan etmişdir. Xüsusilə də bu il iyunun 22-də Belçika Krallığında işgüzar səfərdə olarkən Prezident İlham Əliyev "Euronews" telekanalına müsahibə verərkən bu məsələyə bir daha toxunmuş və münaqişənin həllində İtaliya və Tirol təcrübəsindən faydalanmağın mümkün olduğunu vurğulamışdır. Prezident qeyd etmişdir ki, həmin yerlərdə mərkəzi hakimiyyət onların xalqlarının həyat şəraitini yaxşılaşdırmaq üçün muxtariyyətlərə və onların maliyyə məsələlərinə çox böyük, bəlkə də daha artıq diqqət yetirirlər. Biz də bu cür edə bilərik. Azərbaycan böyük maliyyə imkanlarına malikdir və bizim üçün Dağlıq Qarabağda ciddi iqtisadi və sosial inkişaf proqramlarına başlamaq heç bir çətinlik yarada bilməz.

Münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından nəticəsiz qalmasına baxmayaraq, o hələ ki, davam etdirilməkdədir. 2011-ci ilin fevral ayında həmsədrlərin regiona səfəri mart ayında Soçidə Rusiya Prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycanın dövlət başçılarının görüşünün keçirilməsi ilə nəticələndi. Görüşün yekunları ilə bağlı detalları açıqlanmayan müsbət bəyanatlar verilsə də, bu hadisədən 2 gün sonra 9 yaşlı azərbaycanlı uşağın sərhəd zonasında erməni snayperinin gülləsinə tuş gəlməsi göstərdi ki, Ermənistan münaqişənin həllini istəmir, sadəcə müddətsiz danışıqlar taktikasını seçməklə beynəlxalq ictimai fikri növbəti dəfə aldatmaq niyyəti güdür.

Bunun ardınca Xankəndində mayın 9-da, yəni Şuşanın işğal günündə aeroportun açılacağı ilə bağlı Ermənistan rəhbərliyinin bəyanat verməsi əslində danışıqlar prosesinin dalana dirənməsinə hesablanmış siyasi gediş idi. Azərbaycan tərəfi bu halda ölkəmizin hava məkanını pozan hər hansı mülki təyyarəyə qarşı beynəlxalq praktikada tətbiq olunan istənilən təsir mexanizminin (o cümlədən onun məhv edilməsinin) işlək vəziyyətə gətiriləcəyini bildirdi. Xankəndinə uçacaq mülki təyyarənin hətta birinci sərnişini olacağını bəyan edən S.Sarkisyan son nəticədə Azərbaycanın təzyiqlərinə davam gətirməyib, texniki səbəblərlə bağlı aeroportun açılması mərasiminin təxirə salındığını bildirməyə məcbur oldu.

İyunun 24-də Azərbaycan və Ermənistan prezidentlərinin Rusiya Prezidentinin növbəti təşəbbüsü və iştirakı ilə Kazanda keçirilən görüşü də rəsmi Yerevanın ənənəvi qeyri-konstruktiv mövqeyi ucbatından nəticəsiz yekunlaşdı.

Rusiya prezidentinin Azərbaycan və Ermənistan prezidentlərinə öz xarici işlər naziri vasitəsilə çatdırdığı məktubunda əks olunmuş "yeni müddəalar" da prosesi "ölü nöqtə"dən çıxarda bilmədi. Yeni şəraitdə Prezident D.Medvedevin üçtərəfli deyil, ikitərəfli danışıqlar formatına müraciət etməsi də, nəticəsiz qaldı. Hər halda münaqişənin tənzimlənməsi prosesinin real mənzərəsinin natamam təqdimatı belə sübut edir ki, Ermənistan hər vəchlə mövcud status-kvo vəziyyətini qoruyub saxlamaqda maraqlıdır. Azərbaycan üçün isə bu variant qəbuledilməzdir.

Münaqişənin mövcud vəziyyətinin yuxarıda sadalanan reallıqları fonunda onun perspektiv həlli imkanları haqqında hansı mülahizə, variant və ya proqnozlar irəli sürmək mümkündür? Zənnimizcə, münaqişənin həllinin 3 variantı vardır. Birinci 2 variant dinc, sonuncu variant isə hərbi həll imkanlarını özündə ehtiva edir.

I variant - Ermənistanda S.Sarkisyan rejimi öz işğalçılıq siyasəti nəticəsində üzləşdiyi total və permanent böhran vəziyyətindən çıxmaq üçün siyasi iradə nümayiş etdirərək Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində konkret konstruktiv addımlar ata bilər. Nəticədə, danışıqlar prosesində keyfiyyətcə yeni mərhələnin əsası qoyular və qarşılıqlı kompromislər əsasında münaqişənin həlli prosesi həyata keçirilər. Başqa sözlə, Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək idarəetmə statusu verilə bilər.

S.Sarkisyan hökuməti konfliktin həlli naminə siyasi iradə nümayiş etdirmək iqtidarında deyildir, çünki bu rejimin müvafiq addımları atmaq üçün ciddi sosial bazası yoxdur. Xalqı səfalət, işsizlik və aclıq həddində yaşayan dövlətin iqtidarının bu vəziyyətdə totalitar-terrorçu idarə metodlarına üstünlük verməsi siyasəti anlaşılandır. Bu siyasətin mühüm həlqələrindən birini də ölkədaxili ictimai fikri öz üzücü gündəlik problemlərindən yayındırmaq və onu kənar istiqamətlərə yönəltmək təşkil edir. Belə hallarda cəbhə bölgəsində ataşkəs rejimini kobud şəkildə pozmaqla Azərbaycan tərəfini daha ciddi adekvat addımlar atmağa təhrik etmək və nəticədə, ölkədaxili deyil, ölkəxarici problemlərin prioritetliyini qabartmaq hakimiyyətin mövcudluğunu qoruyub saxlamağın Ermənistanda dəfələrlə sınaqdan çıxarılmış üsuludur.

II variant - Ermənistan dövləti beynəlxalq birlik, xüsusilə də ATƏT-in Minsk qrupu tərəfindən sülhə məcbur edilə bilər. Regionda sülh və sabitlik naminə, xüsusilə də daşıyıcısı olduqları milli maraqlardan çıxış edərək həmsədrlər-ABŞ, Rusiya və Fransa S.Sarkisyan rejiminə müəllifi olduqları yeniləşmiş Madrid prinsiplərini qəbul etdirə bilərlər. Xüsusilə bu istiqamətdə Rusiyanın imkan və potensialı daha böyükdür. Hələ ki, bu baş vermir. Bu, heç də o demək deyildir ki, həmin güclər Ermənistanın müqavimət potensialını qıra bilmirlər. Əsla yox. Sadəcə, bu və ya digər səbəblərdən bunu etmirlər. Başqa sözlə, bunu etməli olan dövlətlər üçün hələ ki, Dağlıq Qarabağ probleminin həlli beynəlxalq gündəliyin prioritet məsələsinə çevrilməyibdir.

III variant - birinci və ikinci variantlar heç bir halda nəticə verməyəcəyi təqdirdə müharibə variantı qaçılmaz ola bilər. BMT TŞ-nın münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməsi (822, 853, 874, 884 - 1993-cü ildə qəbul olunmuşdur), təşkilatın nizamnaməsinin özünümüdafiə hüququ ilə bağlı 51-ci maddəsi, qurumun qəbul etdiyi qərarlarının yerinə yetirilməsinin icbari xarakter daşıması haqqında 25-ci maddəsi, habelə AŞPA, İKT və Avropa Parlamentinin Ermənistanı işğalçı dövlət elan etməsi kimi məlum hüquqi arqumentlər Azərbaycana öz ərazi bütövlüyünü təmin etməsi məqsədilə istənilən təsir mexanizmlərini, o cümlədən hərbi tənzimləmə variantını işə salmaq səlahiyyəti verir.

Zənnimizcə, Azərbaycanın Ermənistandan bir neçə dəfə deyil, bir neçə on dəfələrlə ölçülən hərbi üstünlüyü fonunda torpaqlarımızın təkcə güc yolu ilə deyil, eləcə də I və II variantda qeyd etdiyimiz dinc tənzimləmə üsulu ilə azad olunması imkanı son dərəcədə arta bilər. Başqa sözlə, Azərbaycanın ifrat iqtisadi-hərbi potensialı qarşısında ya S.Sarkisyan rejimi vahimələnib münaqişənin həlli naminə siyasi iradə nümayiş etdirər, ya da regionda müharibənin yenidən alovlanmasını heç bir halda istəməyən, lakin bunun son dərəcə labüd olduğunun fərqinə varan beynəlxalq güclər Ermənistanı anoloji addım atmağa məcbur edər.

Bir sözlə, müstəqilliyimizin 20 ilinin yekunları bir daha təsdiqləyir ki, ölkəmiz bütün sahələrdə qarşısında qoyduğu strateji vəzifələrin öhdəsindən uğurla gələ bilmişdir. Azərbaycanın bütün istiqamətlər üzrə artan potensialı, xüsusilə iqtisadi və hərbi qüdrəti sayəsində yeganə həllini tapmayan ağır problemin-Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də ölkəmizin ərzi bütövlüyü çərçivəsində istər dinc, istərsə də hərbi yolla öz həllini tapacağı isbata ehtiyacı olmayan aksiom tələbidir.

**Əlikram ABDULLAYEV,**
Azərbaycan Respublikasının
Prezidenti yanında Dövlət
İdarəçilik Akademiyasının
rektor əvəzi, fəlsəfə elmləri
doktoru, professor

**Elman NƏSİROV,**
DİA-nın Geostrateji
Araşdırmalar Mərkəzinin
direktor müavini, tarix üzrə
fəlsəfə doktoru, dosent